# Dövlət quruculuğu xəttinin fundamental əsası

***Son illər ölkəmizdə qeyri-neft sektorunun inkişafı, makroiqtisadi sabitliyin təmini, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, ixrac potensialının artırılması, regional siyasətin davam etdirilməsi, sosialyönümlü siyasətin prioritetliyinin qorunub saxlanılması, maliyyə intizamının, şəffaflığın gücləndirilməsi kimi məsələlərə daha çox önəm verilir. Bunlarla bərabər, büdcənin sosialyönümlü olması da diqqət mərkəzində saxlanılır.***

Qarşıya qoyulan bütün bu vəzifələrin xüsusi əhəmiyyət daşıması təsadüfi deyil. Çünki indiyədək respublikamızda əhalinin etibarlı sosial müdafiəsinin, habelə vətəndaşların yüksək rifahının təmini istiqamətində reallaşdırılan ardıcıl tədbirlər milli inkişaf modelinin sosialyönümlü səciyyə daşıdığını tam təsdiqləyib. Qeyri-neft sektorunun və sahibkarlığın inkişafı, yeni müəssisələrin işə salınması məqsədilə həyata keçirilən islahatlar yoxsulluğun səviyyəsinin azaldılmasına, əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının yüksəlməsinə, eləcə də ölkəmizin məşğulluq strategiyasının səmərəliliyinə əlverişli şərait yaradıb.

Hazırda respublikamızda pandemiyanın milli iqtisadiyyata təsirlərinin azaldılması, həmçinin postpandemiya dövründə yeni iqtisadi inkişaf modelinin tətbiqi üçün real zəmin hazırlamaq məqsədilə önəmli tədbirlər həyata keçirilir. Azərbaycan hökuməti tərəfindən beynəlxalq müstəvidə baş verən problemin yarada biləcəyi fəsadların neytrallaşdırılması istiqamətində bütün zəruri addımlar atılır.

Koronavirusla mübarizənin hələ də davam etdirildiyi bir vaxtda makroiqtisadi sabitliyin təmin olunması da diqqət mərkəzində saxlanılır. Bunun üçün, ilk növbədə, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində məqsədyönlü siyasət aparılır, mütərəqqi qanunvericilik bazası möhkəmləndirilir, bu sahəyə səmərəli dövlət dəstəyi mexanizmləri formalaşdırılır, beynəlxalq təcrübədə uğurla sınaqdan çıxan təşkilati-hüquqi modellər, o cümlədən sənaye məhəlləri, aqroparklar və biznes inkubatorlarının yaradılması davam etdirilir. Bununla yanaşı, dövlət idarəetmə sistemində, məhkəmə və hüquq, korrupsiyaya qarşı mübarizə sahələrində ciddi institusional islahatlar gerçəkləşdirilir. Eyni zamanda, investorların hüquqları etibarlı şəkildə qorunur, inzibati prosedurlar sadələşdirilir və şəffaf mexanizmlər tətbiq edilir.

Burada diqqəti bir məqama da yönəltmək istərdik. Həyata keçirilən uğurlu islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı 2014-cü ildən başlanan və bir neçə il davam edən qlobal maliyyə-iqtisadi böhrandan itkilərsiz çıxdığı kimi, hazırda koronavirusun yaratdığı problemləri də tədricən möhkəmlənən iqtisadi-maliyyə potensialı hesabına aradan qaldırmağa, iqtisadi sabitliyi qoruyub-saxlamağa qadirdir.

Dövlət Statistika Komitəsinin (DSK) müvafiq göstəricilərinə diqqət yetirsək, reallaşdırılan tədbirlərin müsbət nəticələr verdiyini aydın görə bilərik. Belə ki, cari ilin 9 ayında Azərbaycanda 62,9 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 4,8 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri neft-qaz sektorunda 6,2 faiz artıb, neft-qaz sektorunda isə 1,4 faiz azalıb.

İlin əvvəlindən keçən 9 ay ərzində ölkə üzrə 36,6 milyard manatlıq sənaye məhsulları istehsal edilib ki, bu da 2020-ci ilin müvafiq dövrünə nisbətən 4,5 faiz çoxdur. Ümumilikdə, bu dövrdə sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 19,6 faiz artıb.

DSK-nın hesabatına əsasən, 9 ay ərzində əsas kapitala 9 milyard 560,2 milyon manat vəsait yönəldilib. İstifadə olunan ümumi vəsaitin 67 faizi məhsul istehsalı və 25,4 faizi xidmət obyektlərinin, 7,6 faizi yaşayış evlərinin tikintisinə sərf edilib. Onu da qeyd edək ki, 65,9 faizi daxili sərmayələr olan bu vəsaitlərin 66,8 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənib.

Yanvar–sentyabr aylarında ölkə üzrə neft-qaz sektoruna 4 milyard 33,8 milyon manat vəsait yönəldilib. Qeyri neft-qaz sektorunun inkişafına istiqamətləndirilən 5 milyard 526,4 milyon manat vəsaitin 1 milyard 41,1 milyon manatından (ümumi sərmayənin 10,9 faizindən) qeyri- neft-qaz sənayesi sektorunda istifadə olunub.

Yeri gəlmişkən, bu dövrdə əsas kapitala 3 milyard 256,6 milyon manat xarici kapital da yatırılıb. Həmin vəsaitin 94,7 faizi Birləşmiş Krallıq, ABŞ, Yaponiya, Türkiyə, Norveç, İsveçrə, Malayziya, Rusiya, Fransa, İran və Virgin adaları investorlarına məxsus olub.

DSK ötən aylar üzrə ölkədə muzdla işləyənlərin orta aylıq əməkhaqqı barədə də məlumat açıqlayıb. Bildirilir ki, Azərbaycanda cari ilin 8 ayı üzrə muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2020-ci ilin eyni dövrünə nisbətən 2,2 faiz artaraq 725,6 manata çatıb. Əhalinin ümumi gəlirlərinə gəldikdə isə həmin məbləğ cari ilin yanvar-sentyabr aylarında 42,3 milyard manat olub ki, bu da nominal ifadədə keçən ilin müvafiq dövründəkindən 2 faiz çoxdur.

Azərbaycanın ötən aylar ərzində xarici ticarət əlaqələrində də müsbət nəticələr qeydə alınıb. Hesabata görə, cari ilin 8 ayı ərzində gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 20 milyard 100,1 milyon dollara çatıb. Ticarət dövriyyəsinin dəyər ifadəsində 12 milyard 750,6 milyon dolları ixrac, 7 milyard 349,5 milyon dolları idxal məhsulları təşkil edib ki, bu da 5 milyard 401,1 milyon dollarlıq müsbət ticarət saldosu deməkdir.

Xarici ticarətdə digər mühüm fakt ixracda qeyri-neft məhsullarının xüsusi çəkisinin artmasıdır. Hesabatda bildirilir ki, cari ilin 8 ayı ərzində Azərbaycandan 1 milyard 584,5 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunub. Bu isə ötən ilin müvafiq dövrünün analoji göstəricilərindən faktiki qiymətlərlə 37,4, real ifadədə 24,3 faiz çoxdur.

Bütün bu göstəricilər Azərbaycanın hazırda 2021–2030-cu illəri əhatə edən keyfiyyətcə yeni bir strateji mərhələyə daxil olmasından xəbər verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi strategiya və dərin islahatlar ölkəmizin iqtisadi qüdrətinin daha da artacağına, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinin formalaşacağına zəmin yaradıb.

Hazırda postpandemiya dövrünün astanasındayıq. Ölkə Prezidenti tərəfindən “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” barədə sərəncamı da bu məqsədə yönəldilib.

Yeri gəlmişkən, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də vurğulanır ki, milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan, xarici mühitdən təsirlənə bilir. Bu səbəbdən uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığı gücləndirilməli, makroiqtisadi sabitlik daha da möhkəmləndirilməlidir. Ölkədə makroiqtisadi sabitliyin və dayanıqlığın gücləndirilməsi məqsədilə yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılmalıdır.

Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasından, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir.

Son 18 ildə respublikamızın əldə etdiyi uğurlu nəticələr, inkişaf göstəricilərinin davamlı olaraq yüksəlməsi həyata keçirilən siyasətin, aparılan islahatların real həyatda təsdiqini əks etdirib, sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişaf üçün etibarlı zəmin yaradıb. Təsadüfi deyildir ki, dünyada yaşanan ən ağır maliyyə və iqtisadi böhranı şəraitində belə Prezident İlham Əliyevin çevik, praqmatik siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib, iqtisadiyyatımız artıb. Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edib.

Azərbaycan əvvəlki illərdə olduğu kimi, cari ilin ötən aylarında da Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf yolu keçib, bütün sahələrdə ciddi nailiyyətlər əldə edilib, respublikamız öz iqtisadi tərəqqisi ilə inkişafın milli modelini formalaşdırıb. Ölkəmizin hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini gerçəkləşdirib. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan mükəmməl iqtisadi strategiya nəticəsində islahatların davamlılığı təmin edilib, iqtisadi inkişaf daha da sürətlənib.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 14 noyabr.- S.8.